Yeni 5 dollarlıq əskinaz
Daha təhlükəsiz. Daha ağıllı. Daha etibarlı.

# Press-reliz

**DƏRHAL BURAXILMAQ ÜÇÜN**

**20 sentyabr, 2007-ci il**

**MEDİA VASİTƏLƏRİ ÜÇÜN ƏLAQƏLƏR:**


Dawn Haley ve ya Claudia Dickens
Həkk Etmə və Çap Bürosu
202/874-2778

Rose Pianalto və ya Jeffrey Smith
Federal Rezerv Bankının İdarə Heyyəti
202/452-2955

İctimaiyyətlə Əlaqə Şöbəsi
ABŞ Gizli Xidməti
202/406-5708

Penny Kozakos
Yeni Pulların Media Dəstəyi Proqramı
202/530-4887


## "Wi-5" tədbiri əsnasında yeni 5 dollarlıq əskinazın debütü

### Tarixdə ilk dəfə yeni dizaynlı əskinazın rəqəmli (digital) təqdimatı
### İstifadəyə başlaması 2008-ci ilin əvvəlinə planlaşdırılmışdır

**Vaşinqton şəhəri (Kolumbiya Əyaləti) 20 sentyabr, 2007-cı i** — Bu gün ABŞ hökuməti rəqəmli (digital) şəraitdə 2008-ci ilin əvvəlində buraxılacaq və tədavülə veriləcək yeni, daha təhlükəsiz dizayna malik 5 dollarlıq əskinazı təqdim etmişdir. Daha sonra yeni 100 dollarlıq əskinazlar buraxılacaq. Tarixdə ilk dəfə ABŞ-ın kağız pulunun tamamən onlayn olaraq təqdimatı keçirilmişdir.

Yaxında yenidən dizayn edilmiş 10, 20 və 50 dollarlıq əskinazlar kimi 5 dollarlıq əskinazlar da təkmilləşdirilmiş və istifadəsi asan olan təhlükəsizlik elementləri vardır; bunların sayəsində firmalar və istehlakçıların qəbul etdikləri yeni 5 dollarlıq əskinazların yoxlanılması asanlaşır, pulun saxtalaşdırılması isə çətinləşir.

ABŞ Xəzinədarlığı, Federal Rezerv Bankının İdarə Heyəti, Həkk Etmə və Çap Bürosu və ABŞ-in Gizli Xidmətindən rəsmi nümayəndələr bugünkü "Wi-5" tədbirində iştirak etdilər. Tamamən rəqəmli (digital) olaraq keçirilən bu tədbir hökumətin pul saxtakarlarını qabaqlamaq əzmində olduğunu nümayiş etdi. 5 dollarlıq əskinazın yeni dizaynının təqdimatında hökumət rəsmiləri iştirak edərək valyutanın təhlükəsizliyinin təmini sahəsindəki tədbirlər haqqında danışdılar. Tədbir **www.moneyfactory.gov/newmoney** ünvanında keçirildi və ona eyni zamanda müxbirlərin onlayn sual-cavab sessiyası da daxil idi. Bundan əlavə saytda yerləşdiriləcək podkastlar da yeni 5 dollarlıq əskinaza dair vacib məlumatları ehtiva edəcək.

Birləşmiş Ştatların Xəzinədarı Anna Escobedo Cabral dedi ki, "Hökumət mümkün olan ən yaxşı vasitələri istifadə edir, belə ki kiminsə saxta əskinaz almağının ehtimalı çox aşağı olacaq». Təkmilləşdirilmiş təhlükəsizlik elementləri yeni valyuta seriyasının əsasını təşkil edir – bunlar hər kəsin asanlıqla istifadə edə biləcəyi təhlükəsizlik elementləridir. Kiminsə sizə saxta pul vermək istəməsi kimi ehtimalı az olan bir vəziyyətdə qazandığınız pulu qoruya bilməyiniz üçün təhlükəsizlik elementlərinin istifadə üsullarını öyrənin".

Yeni 5 dollarlıq əskinaz ən son nailiyyətlərə əsaslanan təhlükəsizlik elementlərinə malikdir və bu elementlər həm nağd pulla işləyən satıcılar, həm də alıcılar tərəfindən asanlıqla istifadə edilə bilər. Bu elementləri yoxlamaq üçün əskinazları işığa doğru tutun:

- **Su nişanları:** Yeni 5 dollarlıq əskinazlarda indi iki su nişanı mövcuddur: Portretin sağında böyük "5" rəqəmi yerləşir və o, Prezident Linkolnun əvvəlki 5 dollarlıq əskinazlardakı portreti formasında su nişanını əvəz edir. Yeni 5 dollarlıq əskinaza ikinci su nişanı - üç ədəd kiçik "5" rəqəmindən ibarət sütun - əlavə edilib və o, əskinazı işığa doğru tutduqda portretin solunda görülür.
- **Təhlükəsizlik teli:** Kağızın içinə keçirilmiş təhlükəsizlik teli şaquli istiqamətdə uzanır və yenidən dizayn edilmiş 5 dollarlıq əskinazdakı portretin sağ tərəfinə yerləşir. "USA" yazısı və onun ardınca gələn "5" rəqəmi bir-birini əvəz edən naxışların içində telin uzunluğu boyunca əskinazın iki tərəfində də görülə bilər. Ultrabənövşəyi işığın altında tutulduqda təhlükəsizlik telinin rəngi maviyə çalır.

Federal Rezerv Bankının İdarə Heyyətinin Rezerv Bank Əməliyyatları və Ödəmə Sistemləri Departamentinin Köməkçisi Direktoru Michael Lambert dedi ki, "Bizim məqsədimiz ilk növbədə Birləşmiş Ştatların və dünyanın digər ölkələrinin maliyyə orqanları və həmçinin digər ölkələrin mərkəzi banklarıyla işləyərək yeni dizaynlı əskinazları ictimaiyyətə tədricən tanıtmaqdır". "5 dollarlıq əskinazlarınızı yenilərilə dəyişdirməyinizə ehtiyac yoxdur. ABŞ hökuməti tərəfindən buraxılan həm yeni, həm də köhnə dizaynlı ABŞ əskinazları qanuni ödəmə vasitəsidir və tam nominal qiymətində görə qəbul edilməyə davam edəcəkdir.

5 dollarlıq əskinazlar geniş şəkildə satış və ödəmə aparatlarında istifadə edildiyini nəzərə alaraq ABŞ hökuməti bu cihazların istehsalatçıları və son istifadəçilərilə yeni 5 dollarlıq əskinazların dövriyyəyə



buraxılacağı haqqında bir ildən çoxdur ki xəbər verməyə başlamışdır ki, yeni əskinazların qəbul edilə bilməsilə əlaqədar lazımi tədbirlərin alınması üçün onların kifayət qədər vaxtları olsun.

Xəzinədarlığın Həkk Etmə və Çap Bürosunun Direktoru Larry R. dedi ki, "Yeni əskinazların qəbul edilə bilməsi üçün öz avadanlıqlarını tənzimlənməsinə dair məlumat vermək məqsədilə biz bankomatların və nağd pulla işləyən başqa növ aparatların istehsalçılarıyla işləyirik". "Eyni dərəcədə vacib olan başqa bir məsələ də odur ki, biz təkmilləşdirilmiş təhlükəsizlik elementlərinin necə istifadə ediləcəyini öyrədirik. Onlar pul saxtakarlığına qarşı müdafiənin ilk cərgəsindədirlər və onların yeni dizayn və onun təkmilləşdirilmiş təhlükəsizlik elementlərilə tanış olması keçidin tədricən həyata keçirilməsi baxımından çox vacibdir.

Bu gün 5 dollarlıq əskinazların yeni görünüşünün təqdim edilməsilə ABŞ hökuməti ictimaiyyətin maarifləndirilməsi proqramının yeni mərhələsini rəsmi olaraq başlamış oldu. Bu proqramın vasitəsilə bütün dünyadakı insanları yeni dizayn və ona daxil olan təhlükəsizlik elementləri haqqında məlumatlandırılacaq və yeni əskinaza tədricən keçid təmin ediləcək.

Nağd pulla işləyən satıcılar və istehlakçıları yeni dizaynı tanımaq və özlərini pul saxtakarlarından qorunmağa hazırlamaq məqsədilə pulsuz məlumatlarndırma materiallar firmalar, maliyyə qurumları, ticarət və peşəkar assosiasiyalar, vətəndaş qrupları və ayrı-ayrı şəxslər tərəfindən əldə edilə bilər. 2003-cü ildən bəri ABŞ hökuməti yeni 10, 20 və 50 dollarlıq əskinazlar haqqında ictimaiyyətin məlumatlandırma və təlim materialların təxminən 78 milyon nüsxəsini paylamışdır. Bir neçə dildə hazırlanan bu materialları sifariş etmək və ya www.moneyfactory.gov/newmoney saytından yükləmək mümkündür.

Beş dollarlıq əskinazın yeni dizaynı, 5 dollarlıq əskinazdakı mürəkkəbi ağardaraq və ya çıxararaq üzərindən yeni çapla 100 dollarlıq əskinazı təqlid etmək yoluyla pul saxtalaşdırma üsuluna qarşı sizi qorumağa kömək edəcək. Yeni dizayn, 5 və 100 dollarlıq əskinazlar arasında mümkün qədər çox oxşarlıqları aradan götürərək saxta pul kəsənlərin planlarını qarışdırır və ABŞ valyutasının istifadəçilərini qoruyur.

Yeni 5 dollarlıq əskinazdakı kağızın içinə keçirilmiş təhlükəsizlik telinin yeri dəyişmişdir və 100 dollarlıq əskinazla müqayisədə bu fərq çox aydın görülür. Köhnə 5 dollarlıq əskinazda təhlükəsizlik teli 100 dollarlıq əskinazda olduğu kimi portretinin solunda yerləşirdi, yenidən dizayn edilmiş 5 dollarlıq əskinazda isə bu tel Prezident Abraham Linkolnun portretinin sağına keçirilmişdir.

Bundan əlavə 5 və 100 dollarlıq əskinazlarının su nişanlarındakı oxşarlıqlar da aradan götürülmüşdür. Köhnə 5 və 100 dollarlıq əskinazların ikisində də portret formasında su nişanı var, yeni 5 dollarlıq əskinazda isə su nişanı böyük "5" rəqəminə çevrilib. Bundan əlavə üç ədəd kiçik "5" rəqəmindən ibarət sütun formasında ikinci su nişanı da əlavə edilib və o, Prezident Linkolnun portretinin solunda yerləşir.

ABŞ Gizli Servisinin İstintaq Şöbəsinin Köməkçi Direktorunun Müavini Michael Merritt dedi ki, "İctimaiyyətin maarifləndirilməsi, hüquq mühafizə tədbirlərinin həyata keçirilməsi və təkmilləşdirilmiş təhlükəsizlik elementlərinin istifadəsi saxta pul kəsənləri niyyətlərindən dönməyə vadar etməyə kömək edir, amma təhlükəsizlik elementləri ancaq onları istifadə edə bilən insanlara kömək edə bilər». "Ağıllı olun, saxta pul kəsənlərin sizdən istifadə etməmələri üçün pulunuzu elementlərini tanıyın".

Keçən il ancaq ABŞ-in özündə şəxslərə və şirkətlərə saxta pulun ötürülməsilə əlaqədar 3,945 nəfər həbs olunub və bunun verdiyi zərər 62 milyon dollar olmuşdur.[1]

Keçən il ABŞ-in Gizli Xidmət Orqanları və beynəlxalq orqanlar 53 milyon dollar həcmindən artıq saxta əskinazın dövriyyəyə salınmasının qarşısını alaraq müsadirə etmişlər. Dünya miqyasında dövriyyəyə salınmış təxminən 65 milyon dollarlıq əskinaz müəyyənləşdirilmiş və tədavüldən çıxarılmışdır. Belə hallarda təqsirsiz qurbanlar saxta əskinaz qəbul edərək maliyyə itkilərinə məruz qalmışdır.[2]

Daha əvvəl buraxılan yeni 10, 20 və 50 dollarlıq əskinazlarda olduğu kimi 5 dollarlıq əskinazların da fonunda Amerikanın azadlıq rəmzi təsvir edilmişdir. Qartal və qalxanın təsvirindən ibarət olan Birləşmiş Ştatların bənövşəyi rəngli Böyük Möhürü əskinazın ön üzündə çap edilmişdir.

Əlavə dizayn elementləri arasında bunlar vardır:

- Görmə qabiliyyəti zəif olan insanların nominalı seçə bilmələrinə kömək etmək məqsədilə yeni 5 dollarlıq əskinazın arxa tərəfində, alt sağ küncündəki "5" rəqəmi asanlıqla oxuna bilməsi üçün böyüdülmüş və yüksək kontrastlı bənövşəyi mürəkkəblə çap olunmuşdur.
- Əskinazın üz tərəfində, Prezident Linkolnun portretinin ətrafındakı oval çərçivə və əskinazın arxasındakı Linkolnun Abidəsinin vinyetkası çıxardılmışdır. Təsvirlərin ikisi də böyüdülmüşdür.
- Əskinazın ön tərəfindəki portreti və Böyük Möhürü bənövşəyi rəngli ulduz qövsü dövrəyə alır, əskinazın ön və arxa üzündə isə sarı rəngli kiçik "05" rəqəmləri çap olunmuşdur.

5 dollarlığın yeni dizaynında ən çox nəzərə çarpan fərq, əskinazın mərkəzindəki açıq bənövşəyi olan, kənarlara yaxınlaşdıqda isə boza çalan rəngin əlavə edilməsidir. Nağd pulla işləyən satıcılar və istehlakçılar kağız pulların orijinal olub olmadığını yoxlamaq üçün ilk növbədə rəngi deyil (rəngləri təqlid etmək mümkündür), əsas təhlükəsizlik elementləri olan su nişanları və təhlükəsizlik telini istifadə etməlidirlər.

###

[1] ABŞ Gizli Xidməti (FY2006 statistik məlumatlarına əsasən)
[2] ABŞ Gizli Xidməti (FY2006 statistik məlumatlarına əsasən)